Fərid Hüseyn



## XİLASKAR QAN KİLSƏSİNDƏ

Bəlkə də hər təzə heykəllə
üst-üstə vurulan taxtayla
bir də çəkilir çarmıxa İsa.
Və bu qədər insanın ömrü
səcdədə keçir -
ilk günahlarına.

Bəlkə də yandırılan hər şamla
hər kəs öz günahlarına işıq salır.
Bəlkə də "hər kilsə zəngiylə
vaxt daralır".

Çarmıx, çarpaz taxtalar deyil,
İsanın hicrət elədiyi yerin adıdı -
çünki yer üzündə qana batmamış
bircə yer də yer yox idi ölməyə.
Çarmıx, İsanın ən güvəndiyi adamdı -
kimsəsi qalmamışdı kürək söykəməyə...

## FİKİR YORĞUNUNUN DEDİKLƏRİ

Kilsələrin üstündəki xaçlar
bənzəyir dinə sancılmış qılınca.
Qürbətdə yada düşən dərdlərim,
könlümü incidir,
bağrımı sökür -
Bakı vaxtıyla - öz saatımızla...

İbadət edən silahların səsindən,
tutulub, kardır qulaqlarımız.
Kilsə zəngiylə döyülür yerə,
əcələ tələsən "əsgər ayaqları"mız...

İnsafdırmı
faniliyinin haqqını əbədiyyətlə ödəyirik -
əbədi zülmlə, əbədi xoşbəxtliklə.
Ayaq üstə yaşamaqdır sonucu qələbəmiz -
bizi torpağa çəkən dünyada - çəliklə.

## ÇARA MƏKTUB

Tarixsiz yaşamaq keçir könlümdən,
keçmişsiz,
ilk insan kimi...
Bu qoca binaları tikməyimi,
bu yolları salmağımı
xatırlamaq istəyirəm.
İlk imperator olmaq
və özümə yalvarmaq istəyirəm...
Ətəyimi öpmək,
vicdanlı insanlarçün bəxşiş almaq,
Şairlərə  tuşlanan silahları
sındırmaq,
sındırmaq istəyirəm...

## BƏYAZ GECƏLƏR

Hardasan, Ey Günəş,
gözüm yollarda qaldı.
Bu gecə öz sükutunu
uşaq qığıltısına
dəyişməyə hazırdı...

Sükut son sözünü deyir
bu açılan səhərə
bir azdan oyanacaq
ana narahatlığı
uşaq səsinə...

## VAXTIN DİLİYLƏ

Əvvəllər
küçələr ayırırdı bizi,
- sonra şəhərlər,
indi də ölkələr...

Əvvəllər
saatlarla ölçülürdü ayrılıq,
sonra günlərlə,
illərlə,
indi də ömürlə.

İndi mənə asan deyil
məsafələr,
yollar,
günlər
arasında yaşamaq...
Bunca yol gələ-gələ,
ömür sürə-sürə
hər gün bir az da çətinləşir
səni olduğun kimi xatırlamaq...

## NEVAYA BAXA-BAXA



Bu izdihamlı küçələrin
heyrəti çıxmır canımdan
Bu qədər adam,
bu qədər arzu
keçir yanımdan.

Bir adamı yolundan
eləmək istəyirəm.
Taksi əyləmək istəyirəm...
O adama yol boyu
günahlarımdan danışıb,
səhvlərimi yad üzlərdə
donuq gözlərdə
görmək istəyirəm...

Ömür bir qorxulu yuxudu,
bu yuxunu
ömrünün səhərini yaşayan
su kimi bir qadına danışıb
sonra ölmək istəyirəm



## ALEKSANDR NEVSKİ KÖRPÜSÜNDƏ

Artıq qum dənəsindən də çoxdur
anbaan çəkilən şəkillər.
Yaşatmaq istədiyimiz anlar
öz əlimizdəcə ölürlər.

Bu dünyada bir ömrü boyu
gözəl yaşamaq çətindir deyə
çəkdirdiyimiz şəkillərdə
bircə an gözəl olmağa çalışırıq.
Hər şəkildə, gülümsəyə-gülümsəyə
ölümlə barışırıq.

Bir azdan açılacaq körpü,
əvvəl yük,
sonra sərnişin
gəmiləri görünəcək.
Sanki öndə qalaqlanmış günahlar,
arxada günahkarlar yürüyəcək.

Yaşadıqca insan, ömür sarvanından,
günah karvanının dəvəsinə çevrilir.
Və bu səfərdə bircə yollar bilir ki,
hər bixitiyar mənzil başına tələsir.

## TƏZƏ ABZASDAN KÖHNƏ XATİRƏLƏR

Görəsən indi kim sayır
öz xoşbəxt günlərini
sənin barmaqlarınla?
Könlümdə sülh dövrüdü -
yuyuram qanı qanla...

Sən də təqsirkarsan,
amma edam ipini
öz boynumu taxıram.
Xatirələr qılığıma girib
günahlarımızdan darıxıram...

